MƏTNŞÜNASLIQ

Nigar AĞAYEVA
Azərbaycan Milli Elmlər Akademiyası
Folklor İnstitutunun doktorantı
nagayeva@beu.edu.az

AZƏRBAYCAN VƏ İNGİLİS UŞAQ FOLKLORUNDA YANILTMACLARIN ÜMUMİ KEYFİYYƏTLƏRİ

Açar sözlər: *Uşaq folkloru, yanıltmac, alliterasiya, assonans, nitq*
Key words: *children's folklore, tongue-twisters, alliteration, assonance, speech*
Ключевые слова: *детский фольклор, скороговорки, аллитерация, ассонанс, речь*

Bu janrın əsas funksiyası uşaq nitqinin səlisləşdirilməsinə yardım etmək, onun nitqini cilalamaqdır. Yanıltmac həm də yaddaşla bağlı olan bir janrdır. Ondan süni nitq vərdişi yaratmaq, aşılamaq məqsədilə də istifadə olunmuşdur. Bu sözün mənası yanılmaq, yanıltmaq felinin mənası ilə açılır. Yanıltmaclar bir janr kimi əsasən ifasına görə müəyyənləşir.

Prof. R.Qafarlı [8] Azərbaycan uşaq folklorunda yanıltmacların sabit formaya malik olmamasını, lakin hamısı üçün ümumi olan keyfiyyətlərin mövcud olduğunu deyir. Alim yanıltmacları üç – a) oxşar səs və söz birləşmələrinin cümlə boyu bir-birini izləməsi, b) sözlərin, yaxud bütöv cümlənin müəyyən dəyişikliklərlə düzülməsi, c) nitqi yanıltmağa, çaşdırmağa çalışmaq qrupunda səciyyələndirir.

Yanıltmaclar həm nəsrlə, həm də nəzmlə yaradılır, canlı xalq dilinin bütün incəliklərini əks etdirir və uşaqların səlis nitqini, diqqətini formalaşdırmaqla yanaşı, onları əyləndirir, söz oyunu kimi isə tərbiyə vasitəsinə çevrilir. Nəzmlə yaranan yanıltmaclarda sanamalara və tapmacalara yaxınlıq daha qabarıq olur: "Dağdan dığırlanır dığırdığır dığdığa" [12, 92]. Nəsrlə yaranan yanıltmacların bir qismi sual şəklində olur: "Ay ağ qılquyruq qırqovul, qara qılquyruq qırqovulu gördünmü?" [12, 90]. Müraciət formalı yanıltmaclara da təsadüf olunur: "Ay aşbaz Abbas, dur mənə beş basma tas aş ver. Bu necə beş basma tas, aşbaz Abbas mənə beş basma tas aş ver" [12, 93]. Bəzi yanıltmaclar dilə yatmayan sözlərin düzgün tələffüzü əsasında formalaşır: "Mollanı əmmamələməlimi, əmmamələməməlimi?" [2, 155]. Bir sıra yanıltmaclarda kiçik, məzəli əhvalat nəql olunur: "Getdim gördüm bir dərədə yeddi qara, qaşqa, səkil, təpəl çəpiş otlayır. Dedim,ey yeddi qara, qaşqa, səkil, təpəl çəpiş, niyə bizim yeddi qara, qaşqa, səkil, təpəl çəpişin yerini otlayırsan? Dedi, niyə sizin yeddi qara, qaşqa, səkil, təpəl çəpiş, bizim yeddi qara, qaşqa, səkil, təpəl çəpişin yerini otlayıb? Onun üçün biz yeddi qara, qaşqa, səkil, təpəl çəpişlər, sizin yeddi qara, qaşqa, səkil, təpəl çəpişlərin yerini otlayırıq [7, 54].

Alliterasiya hadisəsi yanıltmac janrının həyatverici qüvvəsidir. R.Qafarlı özünün fundamental tədqiqat işində [8] Azərbaycan uşaq folklorunda yanıltmacların alliterasiya və assonansları müxtəlif hərflərin nümunəsi əsasında vermişdir. Alim göstərmişdir ki, Azərbaycan folklorunda daha çox d, s, m, r,

k, b, g, ş, t, ç, c, q, a səsləri əsasında yanıtmaclar düzülüb-qoşulmuşdur.

Uşaq folklorunda yanıltmacın səciyyəvi keyfiyyətlərindən danışan f.e.d. Ramil Əliyev isə qeyd edir ki, uşaq folklorunda yanıltmaclar özünü üç tipdə göstərir:

a) Cümlənin içində sözlərin yerini yalnış demək yolu ilə yaranan yanıltmaclar;

b) Çaşdırmalar; çaşdırmaların bir tipində uşaqlar öz yaşıdlarının məntiqi təfəkkürünü yoxlamaq istəyirlərsə, digər bir tipində yaşıdlarının söz ehtiyatını yoxlamaq istəyirlər.

c) Sözlərin, səslərin təkrarından, alliterasiyasından, tərkiblərdən ibarət olur. [10, 328].

Folklorşünas alim A.Nəbiyev [1, 539-540] də yanıltmacların bu üç tipini daha əvvəl müəyyənləşdirmişdir. Görünən odur ki, R.Əliyev A.Nəbiyevin bölgüsü ilə razılaşır. Amma təbii ki, daha müfəssəl bölgünü R.Qafarlı vermişdir.

İngilis folklorunda yanıltmaclar "Tongue Twisters" adlanır və bir çox keyfiyyətləri baxımından Azərbaycan yanıltmaclarına bənzəyir. Belə ki, sözlərin yerini dəyişməklə söylənən yanıltmaca "O, balıqqulağı satır" yanıltmacını nümunə göstərmək olar:

"O, balıqqulağı dəniz kənarında satır,
Əminəm ki, satdığı balıqqulağıdır.
Əgər o, satırdısa dəniz kənarında balıqqulağı,
Əminəm ki, qulaqlar balıqqulağıdır dəniz kənarındaki" [11, 2].

Çaşdırma tiplilərə nümunə kimi "Nə qədər taxtanı taxtabiti çeynədi?" yanıltmacasını göstərmək olar.

Əgər bir taxtabiti taxta çeynəyərsə,
Bir taxtabiti nə qədər taxta çeynəyər?
Əgər bir taxtabiti taxta çeynəyərsə,
Çoxlu taxtanı taxtabiti çeynəyər [11, 6].

Sözlərin təkrarından yaranan yanıltmaclara da ingilis folklorunda rast gəlinir. Həm də nəğmə kimi ifa olunan "Peter Piper" adlanan yanıltmacda bu xüsusiyyəti müşahidə etmək mümükündür.

Peter Piper bükdü bir büküm bükülmüş kağızı,
Bir büküm bükülmüş kağızı Peter Piper bükdü.
Əgər Peter Piper bir büküm bükülmüş kağızı bükdüsə,
Haradadır Peter Piperin bükdüyü bir büküm kağız? [11, s.4].

Folklor araşdırmaçısı Dr.Doğan Kaya [5, 72-73] yanıltmacların əsas iki önəmli funksiyanı icra etdiyini qeyd edir:

1. Dildən gözəl istifadə;

2. Əyləncə məqsədi ilə söylənilənlər. Yanıltmacların yaradılmasında əsas məqsəd dildə olan söz və ifadələrin deyilişini yüngülləşdirmək, onları əzbərləməkdir. Yanıltmacların əsas xüsusiyyəti oxşar səs və söz komplekslərinin bir ritmdə və ahəngdə deyilişidir. Yanıltmaclar içərisində işlədilən sözlərin sayına və tərkibinə görə iki qrupa ayrılır: Azsözlü və ya sadə yanıltmaclar və çoxsözlü və ya mürəkkəb yanıltmaclar.

Sadə yanıltmaclar əsasən bir neçə sözdən ibarət olur. Paşa Əfəndiyevin tərtib etdiyi "Xalqın söz xəzinəsi" toplusunda verilən "Bu mis nə pis mis imiş, bu mis Kaşan misi imiş" və "Ağ balqabaq, boz balqabaq, boz balqabaq, ağ balqabaq" [7, 55] bir neçə sözdən ibarət yanıltmaclar sadə quruluşludur. Bu sözlərin rəvan deyilişi ilə səslərin harmoniyası yaradılır.

İngilis folklorunda da sadə və mürəkkəb tərkibli yanıltmaclara rast gəlinir. Sadə tərkibli yanıltmacalarda az söz və ifadələr işlədilir. Tərcümə prossesində yanıltmacları orijinaldakı kimi səsləndirmək mümkün olmadığı üçün bəzi keyfiyyətləri itir. "I saw Esau sitting on a seesaw. I saw Esau; he saw me" [6] (Mən Esavı yelləncəkdə oturan gördüm. Mən Esavı gördüm, o məni gördü).

Adının şərti olaraq sadə hesab edilməsinə baxmayaraq, bir sıra hallarda bu tipli yanıltmaclarda mürəkkəb söz tərkibləri,

çətin tələffüz olunan səs və söz kompleksləri bəzən də təkrar edilir. Azərbaycan folklorunda "Bir taxçada bal, bir taxçada qıl, bir taxçada zil. Balı uddum, qılı diddim, zili atdım" [9, 73] yanıltmacını, ingilis folklorunda "saw Susie sitting in a shoe shine shop. Where she sits she shines, and where she shines she sits" [6]. (Suzini ayaqqabı parladan dükanda gördüm. Harda o oturur, parıldayır, harda parıldayır, o orda oturur). Bu isə ümumilikdə yanıltmacın tələffüzünü çətinləşdirir.

Nisbətən mürəkkəb yanıltmaclarda daha artıq söz tərkibi iştirak edir. Mürəkkəb quruluşlu yanıltmaclarda isə bütöv bir mətnin səs, söz, söz tərkibi, cümlə, alliterasiya, ritm komponentləri açılır. Burada mürəkkəbtərkibli sözlərdən istifadə olunur.

Azərbaycan folklorunda ən əvvəl diqqət ediləcək yanıltmac forması üçhissəli formadır. Bu forma özü də iki qismə ayrılır: sadə üçhissəli və mürəkkəb üçhissəli. Sadə üçhissəli formaya "Köhnə kirpi körpə kirpini köhnə kərkiynən kərkikləyirdi. Körpə kirpi köhnə kirpiyə dedi: Ay köhnə kirpi, sən mənim kimi körpə kirpini köhnə kərkiynən niyə kərkiləyirsən? Köhnə kirpi körpə kirpiyə belə didi: Mən köhnə kirpi sən körpə kirpini köhnə kərkiynən kərkiləyirəmki, sən məni incidirsən" [3, 153].

İngilis folklorunda da mürəkkəb tərkibli yanıltmaclar mövcuddur. Bu formaya"Betty Botta bought some butter" (Bety Botter bir qədər yağ aldı) yanıltmacını nümunə göstərmək olar: ("Betty Botta bought some butter; "But," said she, "this butter's bitter! If I put it in my batter, it will make my batter bitter. But a bit o' better butter. Will but make my batter better." Then she bought a bit o' butter. Better than the bitter butter, Made her bitter batter better. So 'twas better Betty Botta. Bought a bit o' better butter" [11, 7] (Bety Botter bir qədər yağ aldı, amma dedi ki, bu yağ xarabdı, əgər mən onu xəmirimə qatsam mənim xəmirimi xarab edər. Mənim xəmirimi xarab etməyən, xarab yağdan daha yaxşı yağ alardım. Əgər mən bir qədər yağ alsaydım. Ona görə də o, xarab yağdan daha yaxşı bir qədər yağ aldı və xəmirini də xarab etmədi.)

Yanıltmaclarda əksər hallarda vahid nümunə daxilində iki səsin alliterasiyası baş verir və həmin səslərin toqquşması, bir birini əvəzləməsi yanıltmacın məğzini təşkil edir. Azərbaycan yanıltmacında həm "k", həm də "p" səslərinin alliterasiyası müşahidə edilməkdədir. İngilis yanıltmacında isə "b" və "t" səsləri daha çox təkrar olunur. Lakin hər iki folklorda bir səsin alliterasiyasına əsaslanan yanıltmaclar da çoxdur. Uşaq nitqinin inkişaf etdirilməsi üçün seçilmiş xüsusi tip oxşar səs və sözlərin, cümlələrin alliterasiya vasitəsilə bir ahəng, ritm əmələ gətirməsi və bunların düzgün tələffüzü bu janrın əsas əlamətidir.

Azərbaycan folklorunda üçhissəli yanıltmacların nisbətən fərqli olan daha bir – mürəkkəb şəkli də mövcuddur: "Getdim-gördüm bir dərədə bir bərbər bir bərbəri bərbər bəyirdir. Dedim: A bərbər, nə üçün sən bərbər bu bərbəri bər-bər bəyirdirsən? Dedi, Bu bərbərin atası bərbər mən bərbərin atası bərbəri bər-bər bəyirtdiyi üçün mən bərbər bu bərbəri bər-bər bəyirdirəm. Əgər bu bərbərin atası bərbər mən bərbərin atası bərbəri bər-bər bəyirtməsəydi, mən bərbər bu bərbəri bər-bər bəyərtməzdim" [4, 360]. Bu cür yanıltmac formasını üçüncü hissəsi genişləndirilmiş üçhissəli forma, yaxud mürəkkəb üç hissəli forma adlandırılır.

Eyni yanıltmacın müxtəlif variantlarını nəzərdən keçirəndə görünür ki, öz şifahi mövcudluğu ərzində sadə üçhissəli formaya malik olan nümunənin üçüncü hissəsi bəzən genişlənməyə məruz qala bilər. Bu da həmin yanıltmacın mürəkkəb üçhissəli forma arasına gətirib çıxarır. Eyni səviyyədə əks proses də müşahidə olunur. Beləliklə, üçhissəli yanıltmaclarda müəyyən bir əhvalat, baş

vermiş hadisə bu hadisənin şahidi və müşahidəçisi tərəfindən nəql olunur.

Üçhissəli formaya malik olan yanıltmacların istənilən qədər nümunəsini nəzərdən keçirmək mümkündür.

Azərbaycan folklorunda rast gəlinən yanıltmac formalarından biri də sual-cavab əsasında qurulan dialoq formasıdır. Hər iki folklorda olan materiallar bu formanın özünün də növ müxtəlifliyinə malik olduğunu və beləliklə də müəyyən təfsilat tələb etdiyini göstərir. Azərbaycan folklorunda: "Bazarda nə ucuz? Mis ucuz, küncüt ucuz, duz ucuz" [2, 155].

İngilis folklorunda "How many cookies could a good cook cook If a good cook could cook cookies? A good cook could cook as much cookies as a good cook who could cook cookies" [6] (Yaxşı aşpaz peçenye bişirə bilirsə yaxşı aşpaz nə qədər peçenye bişirə bilər? Yaxşı aşpaz yaxşı peçenye bişirə bilən aşpaz qədər yaxşı bişirə bilər).

Bu nümunələrin hər birində sual və cavab hissələri bir-biri ilə ayrılmaz surətdə bağlıdır və həmin hissələrdən birinin ixtisar edilməsi yanıltmacın məzmununu pozur, daha doğrusu onu məzmunsuz edir.

Xüsusi olaraq qeyd etmək lazımdır ki, dialoq formasına malik olan yanıltmacların deyilişi-ifası zamanı iki nəfərin iştirakı vacib deyildir. Onlar əksər hallarda bir nəfər tərəfindən şəxsin öz-özü ilə sual-cavabı şəklində deyilir. Deyilişdə iki nəfər iştirak edəndə isə o artıq oyuna çevrilir, teatrlaşma ünsürləri meydana gəlir. Sürətli sual-cavab iki nəfərdən birinin çaşmasına, ilişməsinə qədər davam edir. Sonra ifaçılar öz tərəflərini dəyişirlər. Oyunun davamı üçün hər dəfə yeni yanıltmac seçmək lazım deyil. Eyni nümunədən təkrar istifadə etmək olar.

Qeyd etmək lazımdır ki, dialoq formalı yanıltmaclar müəyyən zəmində meydana gəlmişlər və onlar həm Azərbaycan, həm də ingilis folklorunun çoxəsrlik ənənələri ilə bağlıdırlar. Azərbaycan və ingilis yanıltmaclarının bir qismi aşpaz və satıcı peşələri ilə bağlı yaranmışdır.

Uşaq zehninin və yaddaşının möhkəmləndirilməsində yanıltmacların xüsusi çəkisi vardır. Bu cəhətdən uşaq folklorunun janr sistemində yanıltmaclar mühüm yer tutur. Azərbaycan və ingilis yanıltmacları yalnız nitq tərbiyəsinə xidmət edən təsadüfi qoşulmuş nümunələr deyil, əksinə, onlar milli folklor janrları sistemində və ümumiyyətlə hər iki xalqın şifahi yaradıcılığında möhkəm mövqe tuturlar. Azərbaycan və ingilis yanıltmacları uzun əsrlər boyu müəyyən olunmuş poetik ənənələrə söykənərək ölçülübbiçilmiş, qəliblənmiş forma xüsusiyyətləri əsasında yaranır və çoxalır.

Yanıltmaclar canlı xalq danışıq dilinin bütün incəliklərini özündə əks etdirir və uşaqların səlis nitqini, diqqətini formalaşdırmaqla yanaşı, onları əyləndirir, söz oyunu kimi isə tərbiyə vasitəsinə çevrilir. Yanıltmaclar zehni inkişaf etdirməklə yanaşı, nitqi aydınlaşdırır, uşaqların özlərinin bir sıra uşaq nəğmələri yaratmasında müəyyən rol oynayır.

Həm Azərbaycan, həm ingilis yanıltmaclarında forma, məzmun, üslub oxşarlıqları ilə yanaşı milli həyatı əksetdirmə baxımından fərdilik də özünü göstərir. Bütün qarşılıqlı əlaqə və təsirlərlə yanaşı azərbaycanlılarda yayılan nümunələr bu xalqın özünün, ingilislərin yanıltmacları isə ingilis xalqı tərəfindən yayılan bədii nümunələr kimi diqqəti cəlb edir.

Ədəbiyyat

1. Nəbiyev A. Azərbaycan xalq ədəbiyyatı. Birinci hissə. Bakı, Çıraq, 2009, 640 s.
2. Azərbaycan folkloru antologiyası, Toplayanı və tərtib edəni Əhliman Axundov. I kitab, Bakı, Az.SSR.EA nəşriyyatı, 1968, 290 s.

3. Azərbaycan folkloru antologiyası. XIII kitab (Şəki, Qəbələ, Oğuz, Qax, Zaqatala, Balakən folkloru), Bakı, "Səda" nəşriyyatı, 2005, 546 s.
4. Azərbaycan şifahi xalq ədəbiyyatı (Antologiya). İki kitabda. Birinci kitab. Tərtib edəni: Bəhlul Abdulla. XXI - Yeni Nəşrlər Evi, Bakı, 2001, 376 s.
5. Doğan Kaya. Sivas Folkloru, Ocak-Subat 1979, sayı 18, s.72-73,
6. http://www.uebersetzung.at/twister/en.htm
7. Xalqın söz xəzinəsi. Tərtib edəni Paşa Əfəndiyev. Bakı, Maarif, 1985, 268 s.
8. Qafarlı R. Uşaq folklorunun janr sistemi və poetikası. Bakı, "Elm və Təhsil", 2013, 540 s..
9. Oğuz elindən-ozan dilindən. Tərtib edən və çapa hazırlayan:Aslan Bayramov. Bakı, «Elm», 2000, 250 s.
10. Əliyev R. Azərbaycan şifahi xalq ədəbiyyatı (müasir aktual problemlər).Bakı, Çıraq, 2014, 350 s.
11. Tongue Twisters Limericks and Humorous Verse. Selecded by Fiona Waters. Pearson Education Limited, England, 2000, 14 p.
12. Uşaq folkloru, Bakı,"Altun kitab", 2007, 96 s.

Нигар Агаева

РЕЗЮМЕ

Общие особенности скороговорк в Азербайджанском и английском детском фольклоре

Скороговорки имеют особое значение для укрепления детского ума и памяти. Создание искусственной речевой привычки Скороговорки используется для сглаживания речи ребенка. Скороговорка отражает все тонкости живого разговорного языка, наряду с формированием детской речи, вниманием, а также развлекает их, а игра слов становится средством воспитания.

Скороговорки создаются как прозой, так и поэзией. Событие аллитерации - жизненная сила жанра «Скороговорк». В большинстве случаев аллитерация двух голосов происходит в пределах одного образца, а столкновение этих звуков и замена их - это сущность языка. Главной особенностью этого жанра является создание гармонии, ритма и правильного произношения предложений и звуков того же типа, и словаря, выбранного для развития детской речи.

В английском фольклоре слова-твистеры называются «Tongue Twisters» и похожи на азербайджанские слова с точки зрения их многочисленных качеств. В статье аллитерация и ассоциация языковых твистеров были даны на основе примера разных букв на азербайджанском и английском фольклоре. Согласно количеству и содержанию слов, слова-твистеры подразделяются на две группы - с несколькими словами или простыми языковыми твистерами и разноцветными или сложными языковыми твистерами. Как в азербайджанском, так и в английском фольклоре эта форма языковых твинов найдена. Одна из форм языка - это форма диалога, основанная на вопросах и ответах. Оба фольклорных материала показывают, что эта форма также имеет разнообразие видов и, следовательно, требует некоторых деталей. На определенной земле сформировались диалогичные язычники, которые связаны с многовековыми традициями азербайджанского и английского фольклора. Часть англичан и азербайджанских знакомых была связана с поварами и продавцами. Помимо формы, содержания, сходства стиля на азербайджанских и английских языках, он также демонстрирует разницу в национальной жизни.

Nigar Aghayeva

SUMMARY

General peculiarities of tongue-twisters in Azerbaijani and english children's folklore

Tongue-twisters have particular importance in strengthening child's mind and memory. Creating an artificial speech habit of tongue-twisters is used to smooth a child's speech. The tongue-twisters reflect all the subtleties of the lively spoken language, along with forming children's fluent speech, attention, as well as entertaining them and as a word game becomes a means of education.

Tongue-twisters are created both by prose and by poetry. The alliteration event is the life-force of the tongue-twisters genre. In most cases, the alliteration of two voices occurs within the single sample, and the clash of these sounds and replacing one is the essence of tongue-twisters. The creation of a harmony, rhythm, and the correct pronunciation of sentences and sounds of the same type and vocabulary chosen for the development of children's speech is the main feature of this genre.

In English folklore, tongue-twisters are called "Tongue Twisters" and are similar to Azerbaijani tongue-twisters in terms of their many qualities. In the article, the alliteration and assonance of tongue-twisters were given on the basis of an example of different letters in Azerbaijani and English folklore. According to the number and content of the words tongue-twisters are subdivided into two groups- with few words or simple tongue-twisters and multicolored or complex tongue-twisters. Both in Azerbaijani and English folklore this form of tongue-twisters is found. One of the tongue-twisters forms is the form of dialogue based on questions and answers. Both folklore materials show that this form also has a variety of species diversity, and thus requires some detail. Dialogue-shaped tongue-twisters have been formed on a certain ground and they are linked to centuries-old traditions of both Azerbaijani and English folklore. A part of the English and Azerbaijani tongue-twisters has been associated with cooks and vendors. In addition to form, content, style similarities in Azerbaijani and English tongue-twisters, it also demonstrates the difference in terms of national life.

Rəyçilər: dos.N.Qurbanov; fil.ü.fəl.dok.R.Məmmədov